# 193 Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə qarşı Komitəsinin və Beynəlxalq Amnistiya Təşkilatının Azərbaycana dair hesabatı ilə əlaqədar tədbirlər haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏRƏNCAMI

1999-cu il noyabrın 15-17-də Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə qarşı Komitəsinin 23-cü sessiyasında "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" Konvensiyanın tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının məruzəsinə baxılmışdır.

Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə qarşı Komitəsi və Beynəlxalq Amnistiya Təşkilatı ölkəmizin keçid dövründə müəyyən çətinliklərlə üzləşməsinə baxmayaraq insan hüquq və azadlıqlarının müdafiəsi və hüquqi dövlət quruculuğu sahəsində Azərbaycan Respublikasının səylərini təqdirəlayiq hesab etmişdir.

Bununla yanaşı, Beynəlxalq Amnistiya Təşkilatının məruzəsində ölkəmizdə insan hüquqlarının təminatı sahəsində müəyyən problemlər və nöqsanlar olduğu qeyd edilmişdir.

Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə qarşı Komitəsinin və Beynəlxalq Amnistiya Təşkilatının Azərbaycana dair hesabatında göstərilən faktların yoxlanılması və tədbir görülməsi, bu sahədə insan hüquqlarının müdafiəsi ilə məşğul olan beynəlxalq təşkilatlarla işin səmərəli təşkil olunması məqsədi ilə

**qərara alıram:**

1. Aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

**İşçi qrupunun rəhbəri**

Ramiz **Mehdiyev** - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri

**İşçi qrupunun üzvləri:**

Şahin **Əliyev** - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri

Fuad **Ələsgərov** - Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri

Xələf **Xələfov** - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Fikrət **Məmmədov** - Azərbaycan Respublikası Baş prokurorunun müavini

Aydın **Qasımov** - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini, Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin rəisi

Oruc **Zalov** - Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Fərhad **Abdullayev** - Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi

Baxış **Zeynalov** - Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini

Məmməd **Beydullayev** - Azərbaycan Respublikası müdafiə nazirinin müavini

2. İşçi qrupuna tapşırılsın ki, 15 gün müddətində Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə qarşı Komitəsinin və Beynəlxalq Amnistiya Təşkilatının Azərbaycana dair hesabatında göstərilən faktların yoxlanılaraq tədbir görülməsini və həmin təşkilatlara cavab hazırlanmasını təmin etsin.

3. Azərbaycan Respublikasının ədliyyə, daxili işlər, milli təhlükəsizlik və müdafiə nazirliklərinə tapşırılsın ki, insan hüquq və azadlıqlarının təminatı sahəsində mövcud olan qanun pozuntularının qarşısının alınması məqsədi ilə müvafiq tədbirlər planı hazırlayıb həyata keçirsinlər.

4. Azərbaycan Respublikasının Ali Məhkəməsi və Baş Prokurorluğu Beynəlxalq Amnistiya Təşkilatının məruzəsində göstərilən nöqsanların aradan qaldırılması üçün bu beynəlxalq təşkilatın tövsiyələrini nəzərə alsınlar.

5. Bu Sərəncamın icrasına nəzarət Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına həvalə olunsun.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 10 mart 2000-ci il**
**№ 354**

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 31 mart, № 3.- S.1133-1134.